


## *Yaradıcılığı*

Mirzə Ələkbər Sabir bədii yaradıcılığa çox erkən, hələ Şamaxıda ibtidai məktəbdə oxuyarkən müəllimi, görkəmli şair Seyid Əzim Şirvaninin təsiri ilə başlamışdır. İlk şeirləri əsasən klassik lirika ənənələri əsasında qələmə alınmışdır. Bütövlükdə isə M.Ə.Sabirin yaradıcılığı çoxcəhətlidir. O, ədəbi fəaliyyəti dövründə dini mərsiyələr, lirik şeirlər, satiralar yazmış, tərcüməçiliklə məşğul olmuşdur. Sabirin felyetonları və məqalələri də vardır.

Şairin mərsiyələrindən az bir qismi bizə gəlib çatmışdır. Bu mərsiyələrdə əsasən Kərbəla müsibətləri, dini şəxsiyyətlər və hadisələr haqqında düşüncələr öz əksini tapmışdır. Bundan başqa, görkəmli maarifçi ziyalı Həsən bəy Zərdabinin, İranda «qanuni-əsasi» – konstitusiya qəbul edilməsinə nail olmuş Müzəffərəddin şahın, Şamaxı şəhərinin nüfuzlu və varlı şəxsi Hacı Məcid Əfəndinin vəfatı münasibətilə də M.Ə.Sabir düşündürücü mərsiyələr yazmışdır. Şairin bu istiqamətdə yazılmış mərsiyələrində bəzi ictimai motivlər, milli ideyalar da ifadə olunmuşdur. Hətta M.Ə.Sabir həmin qəbildən olan mərsiyələrindən birini «Növheyi-milli» adlandırmışdır.

Mirzə Ələkbər Sabirin yaradıcılığında lirik şeirlərin xüsusi yeri vardır. Şair həyatının demək olar ki, bütün mərhələlərində satira ilə yanaşı lirik şeirlər də yazmışdır. Lirika Sabirin yaradıcılığının xüsusi bir qolunu, müstəqil bir istiqamətini təşkil edir.

Lirika baxımından Mirzə Ələkbər Sabirin əsərlərini əsasən üç qismə ayırmaq olar: klassik üslubda yazılmış qəzəllər, ictimai-siyasi şeirlər və uşaq şeiri nümunələri.

M.Ə.Sabirin dövrümüzə qədər gəlib çatmış qəzəllərində özünəqədərki klassik poeziyanın və müəllimi S.Ə.Şirvaninin təsiri hiss olunur. Orta əsr lirik poeziyasından alınmış bədii təsvir və ifadə vasitələri, Leyli və Məcnun kimi klassik ədəbiyyat qəhrəmanlarının yad edilməsi bu qəzəllərin əksəriyyəti üçün səciyyəvidir:

Şərü hər muyidə min aşiqi-nalanın var,
Məgər, ey şux ki, bir cismdə min canın var?
Hər mərəz çarəsini eyləmək asandı, təbib,
Mərəzi-eşqə nə tədbir, nə fərmanın var.
Sabira, qərq edər axır səni bu seyli-bəla,
Olma qafil belə kim, dideyi-giryanın var.

Bununla belə, «İstəsən könlüm kimi zülfi pərişan olmasın», «Ey dil, amandı, sirrimi biganə bilməsin» kimi qəzəllərində M.Ə.Sabirin özünəməxsus təsvir və ifadə vasitələri, fikir və mətləbləri də az deyildir. Bütövlükdə qəzəllər M.Ə.Sabirin bədii istedadını qabarıq surətdə nəzərə çarpdırır.

Yaradıcılığında özünəməxsus yeri olan ictimai-siyasi şeirlərdə cəmiyyət həyatında gedən ictimai proseslərin, baş verən siyasi-tarixi hadisələrin doğurduğu təəssüratlar, oyatdığı fikirlər və düşüncələr öz əksini tapmışdır.

Klassik poeziyada geniş yayılmış fəxriyyə janrını XX əsrin əvvəllərində Sabir təzədən dirçəltmiş və yeni motivlərlə zənginləşdirmişdir. Şairin 26 avqust 1907-ci ildə «Molla Nəsrəddin» jurnalında dərc olunmuş məşhur «Fəxriyyə» şeiri Azərbaycan poeziyası tarixində bu janrın yeni və bənzərsiz nümunəsidir. Əgər klassik ədəbiyyatda fəxriyyələr əsasən hökmdarlar haqqında yazılırdısa, M.Ə.Sabirin «Fəxriyyə» adlı şeiri xalqın və vətənin taleyinə həsr olunmuş, burada milli və dini birlik ideyası öz əksini tapmışdır. Şair millətimizin «öz qövmümüzün başına əngəlkələf» olmasının səbəblərini araşdırmış, səhvləri, yanlışlıqları təhlildən keçirmiş, var gücü ilə bunlardan ibrət dərsi almağa, dindaxili ayrıseçkiliyə son qoymağa, milli birliyə çağırmışdır.

M.Ə.Sabirin 1910-cu ildə «Yeni füyuzat» jurnalında dərc olunmuş «Ruhum» şeirində şairin azadlıq idealı öz əksini tapmışdır. Həyatının ən sıxıntılı günlərində, maddi çətinliklər və xəstəlik dövründə yazılmış bu şeirdəki «Yanma sən də mənim tək narə», yaxud «Bir səfa bulmadıq bu aləmdə» kimi misralar Sabirin mövcud cəmiyyətə tənqidi münasibətini, ictimai etirazlarını ifadə edir. Lakin bütün çətinlikləri dəf edərək millətinin dirçəlişinə dürlü xidmətlər göstərmiş vətəndaş şair ölməz sənətinin əbədiyyət qazanacağına inanır. Şeirdən görünür ki, Sabir azadlıq idealına bütün ruhu ilə bağlıdır. Azadlıq günəşinin doğacağına dərin inam duyğuları ifadə edən «Ruhum» şeiri humanist şairin vəsiyyətnaməsi təsiri bağışlayır:

Mən gedərsəm, var olsun amalım!
Yaşasın Şəhriyari-hürriyyət!
Yaşasın Şəhriyari-hürriyyət!
Mən gedərsəm, var olsun amalım!

«Dindirir əsr bizi» şeiri Sabirin milli dirçəliş andı kimi səslənir:

Dindirir əsr bizi, dinməyiriz,
Açılan toplara diksinməyiriz,
Əcnəbi seyrə balonlarla çıxır,
Biz hələ avtomobil minməyiriz!

Mirzə Ələkbər Sabirin uşaq şeirləri Azərbaycan uşaq ədəbiyyatının qızıl fonduna daxil olan dəyərli sənət nümunələridir. «Hər işin ibtidası tərbiyədir» qənaətinə möhkəm inam bəsləyən Sabir uşaqlar üçün yazılmış şeirlərində yeni nəsli

məktəbə getməyə, elm və təhsil almağa həvəsləndirməyə səy göstərmişdir. Şairin fikrincə «tərbiyyət elmsiz deyildir məqbul». Ona görə də M.Ə.Sabir ilk növbədə elmin, məktəbin mahiyyətini, faydasını gənc nəslə çatdırmağa çalışmışdır:

Məktəbdə var şərafət,
Dəftərdə var lətafət.
Cari olur qələmdən
Şirin-şirin hekayət.

Yaxud:

Elm öyrən, imtahan ver,
Öz fəzlini nişan ver.
Qədrin bil elmü fənnin,
Elmin yolunda can ver.
Ey gözüm, ey canım!
Get məktəbə, cavanım!

XX əsrin əvvəllərində yazılmış «Uşaq və buz», «Yaz günləri», «Məktəbə təğrib», «Ağacların bəhsi», «Cütçü», «Yalançı çoban» kimi qiymətli şeirləri ilə M.Ə.Sabir Azərbaycan uşaq şeirinin qüdrətli yaradıcılarından biri olduğunu sübut edir.

M.Ə.Sabir Firdovsinin «Şahnamə» dastanından bir parçanı Azərbaycan dilinə tərcümə etmiş, İ.A.Krılovun eyniadlı təmsilinin motivi əsasında «Qarğa və tülkü» adlı mənalı bir təmsil yaratmışdır. Şairin «Hörümçək və ipəkqurdu» təmsilində, «Ağacların bəhsi» alleqorik şeirində, «Camış və sel», «Molla Nəsrəddin və oğru», «İskəndər və fəqir» mənzum hekayələrində yeni nəsil üçün faydalı və ibrətamiz olan mənalı mətləblər ifadə olunmuşdur.

Mirzə Ələkbər Sabir ilk satirik şeirini hələ məktəbli ikən, 8 yaşında söyləmişdir:

Tutdum orucu irəmazanda,
Qaldı iki gözüm qazanda,
Mollam da döyür yazı yazanda…

Bu şeir parçası həm də M.Ə.Sabirdə satirik təfəkkürün ilk cücərtisi, toxumu kimi də müəyyən əhəmiyyətə malikdir.

Az sonra görkəmli şair S.Ə.Şirvaninin dərs dediyi Şamaxı şəhər məktəbində təhsil alarkən yazılmış şeir dəftərini atası cırdığı üçün onun ilk qələm təcrübələri bizə gəlib çata bilməmişdir. Lakin müşahidələr göstərir ki, o hələ «Molla Nəsrəddin» jurnalının nəşrinə qədər də ara-sıra satirik şeirlər qələmə almışdır. Məsələn, «Tanrı hər yerdə pulu bir ürəyi səxtə verir» misrası ilə başlayan satirik şeir XIX əsrin 90-cı illərinin ortalarında meydana çıxmışdır. Yaxud, Sabirin «Bir məclisdə on iki kişinin

söhbəti» satirik şeiri 10 fevral 1906-cı ildə Bakıda nəşr edilən «Həyat» qəzetində dərc olunmuşdur. Bununla belə, M.Ə.Sabirin satira yaradıcılığı ilə ardıcıl məşğul olmasında «Molla Nəsrəddin» curnalı həlledici rol oynamışdır. Şairin satiralarının böyük əksəriyyəti «Molla Nəsrəddin» curnalı vasitəsilə geniş dairədə yayılmış, ona böyük şöhrət qazandırmışdır.

Heç tərəddüd etmədən demək olar ki, Mirzə Ələkbər Sabir Azərbaycan satirik şeirinin ən qüdrətli yaradıcısıdır. O, özünəqədərki ədəbiyyatda mövcud olan satirik ənənələri yeni forma və məzmunla, təzə ideyalarla zənginləşdirib, satirik şeiri xüsusi inkişaf mərhələsinə çatdırmışdır. Müasiri və məslək dostu Abbas Səhhətin sözləri ilə desək, Sabir «köhnə şeirlərlə yeni şeirlər arasında bir əsrlik uçurum açdı ki, bir daha dönüb o uçurumu geriyə atılmağa kimsədə cürət qalmadı».

XX əsrin əvvəllərinin mürəkkəb siyasi-tarixi hadisələri M.Ə.Sabirin satira yolunu seçməsində mühüm rol oynamışdır. Məhz bu dövrdə xalqın həyatı, taleyi, oyanışı və dirçəlişi mövzusunun ön mövqeyə çıxması şairin satirik şeir yaradıcılığının əsas təkanverici qüvvəsinə çevrilmişdir. Xüsusən, Rusiyada baş vermiş 1905-ci il inqilabının, Cənubi Azərbaycandakı Məşrutə hərəkatının yaratdığı demokratik ab-hava M.Ə.Sabirin də Vətən və millət, milli oyanış və tərəqqi barəsində təsirli satirik şeirlər yazmasına münbit şərait yaratmışdır. Özünün də bəyan etdiyi kimi, o heç vaxt, hətta ən çətin məqamlarda belə mənsub olduğu xalqa haqq sözü deməkdən çəkinməmişdir:

Mən belə əsrarı qana bilmirəm,
Qanmaz olub da dayana bilmirəm.
…Derlər utan, heç kəsə bir söz demə –
Haq sözü derkən utana bilmirəm!…
Neyləməli, göz görür, əqlim kəsir,
Mən günəşi göydə dana bilmirəm.

M.Ə.Sabirin satirik şeirləri hər şeydən əvvəl Azərbaycan xalqının konkret tarixi şəraitdəki ərzi-halının bədii ifadəsindən ibarətdir. «Pah atonnan, nə ağır yatdı bu oğlan, ölübə», «Ayılma», «Bizə nə», «Kim nə deyər bizdə olan qeyrətə», «Yaşamaq istər ürək», «Adətimiz daş idi dəva günü», «Qoyma, gəldi», «Adəmi adəm eyləyən paradır» və s. kimi satirik şeirlərində ilk növbədə cəhalət və geriliyin, sinfi fərqlərin acı təzahürləri göz önünə gətirilmişdir. Bu qəbildən olan satirik şeirlər şairin bütün yönləri ilə göstərdiyi məşəqqətli vəziyyətdə yaşamağın mümkünsüzlüyünü ortaya qoyur:

Açsan gözünü rəncü məşəqqət görəcəksən,
Millətdə qəm, ümmətdə küdurət görəcəksən,
Qıldıqca nəzər millətə heyrət görəcəksən,
Çək başına yorğanını, nikbətdən ayılma!

Laylay, bala, laylay!
Yat qal dala, laylay!

Yaxud:

Pah atonnan, nə ağır yatdı bu oğlan, ölübə!
Nə də tərpənməyir üstündəki yorğan, ölübə!
Bu qədər qışqırığa durdu qonum-qonşu təmam,
Dəbərişməz də, veribdir, deyəsən, can ölübə!
…Hansı bir doktora ərz etdim onun illətini,
Dedi: çək bundan əlin, boşla, bu çoxdan ölübə!

Əslində, bu şeirlərdəki «xab et», «ayılma», «ölübə» kimi ifadələrlə şair insanları mənəvi əsarətdən xilas olmağa, ayılmağa, özünü dərk etməyə, haqlarını başa düşməyə çağırır.

Mövcud vəziyyətdən çıxış yolu kimi Sabirin satiralarında məktəbə, ictimai-mədəni və texniki tərəqqiyə, milli-mənəvi özünüdərkə dəvət motivi ön mövqeyə çəkilmişdir. Bu məqamda şairin seçdiyi oyanmış qəhrəman «Qanma!» əmrinə «Qabili-imkanmı olur qanmamaq?» cavabını verə bilir:

– Görmə! – Baş üstə yumaram gözlərim.
– Dinmə! – Mütiəm, kəsərəm sözlərim.
– Bir söz eşitmə! – Qulağım bağlaram.
Gülmə! – Pəkey, şamü səhər ağlaram.
Qanma! – Bacarmam! Məni məzur tut,
Böyləcə təklifi-məalı unut!
Qabili-imkanmı olur qanmamaq?
Məcməri-nar içrə olub yanmamaq?!

Milli oyanışa nail olmağın yolunu şair elmə və təhsilə yiyələnməkdə, özünüdərketmədə, dünya işlərindən baş çıxarmaqda görür. Ona görədir ki, M.Ə.Sabirin yaradıcılığında məktəb, maarifçi ziyalı, məktəbə gedən uşaq, elmə, təhsilə köhnəpərəst münasibətin tənqidi mühüm yer tutur. Şərti olaraq bu tip şeirləri maarifçi satirik şeirlər adlandırmaq olar. «Bilməm nə görübdür bizim oğlan oxumaqdan», «Neçin məktəbə rəğbətim olmayır», «Uşaqdır», «Uçitellər», «Müəllimlər syezdi», «Oxutmuram, əl çəkin», «Ürəfa marşı» və s. kimi satiralarında elmsizliyin, savadsızlığın bəlaları, məktəbin və təhsilin düşmənlərinin ifşası, yalnız elm öyrənməklə, təhsil almaqla özünüdərkin isbatı kimi öz dövrü üçün çox aktual olan məsələlərdən söz açılmışdır:

Yıxdın evimi, eylədin övladını saye,
İş keçdi məhəldən.
Mən anlamazam elm nədir, ya ki, sənaye,

Zarəm bu əməldən!
…Bəsdir oxudun, az qala canın tələf oldu,
Bu kardan əl çək!
Yazmaq, oxumaq başına əngəl-kələf oldu,
Əşardan əl çək!

Sabir dolayı yolla məktəbin milli oyanışın, dirçəliş və tərəqqinin əsas hərəkətverici qüvvəsi olduğu qənaətindədir. Şairin yaradıcılığındakı cəhalət, mövhumat və fanatizmə qarşı kəskin mübarizə nəticə etibarilə köhnə həyat tərzindən və gerilikdən xilas olmaq, yeniləşməyə meyl etmək qayəsini izləyir. Cahil mollaların, mənəvi əsarətin əsas baiskarları olan yalançı din xadimlərinin tənqidi baxımından Sabir mollanəsrəddinçi şairlərin hamısından irəlidədir. Şair savadsız, köhnəpərəst, şəxsi mənafelərini üstün tutan qondarma din təmsilçilərini sadəcə tənqid etməklə kifayətlənmir, sona qədər ifşa etmək üçün onların iç üzünü, mənfur niyyətlərini böyük cəsarətlə açıb göstərir. Sabir hətta xalqdan uzaq düşən belə üzdəniraq bəndələrin yeri gəldikdə yad ölkələrin maraqlarını həyata keçirən misyonerlərlə də həmrəy ola biləcəklərini yada salır:

Mollalar, taleyiniz oldu əcəb yar bu gün,
Misyonerlər də bizə çıxdı həmvar bu gün!
O ki məktəbləri məhv etmək idi niyyətimiz,
Yox idi əldə və lakin ona bir qüdrətimiz.
Məktəb artdıqca azalmaqda idi sənətimiz.
Günbəgün zaid olurdu qəmimiz, möhnətimiz,
Arkadaşlar, sevinin, oldu rəva hacətimiz!

Bununla belə, yalançı, ikiüzlü, riyakar din xadimlərinə barışmaz münasibət bəsləyən, M.Ə.Sabir ateist, dinsiz deyildir. O, islam dininə inanan, ehtiram göstərən, lakin bu dindən xalqın əleyhinə bir vasitə kimi istifadə edənlərə qənim kəsilən vətəndaş, Azərbaycan şairidir. Sabir «A şirvanlılar» şeirində islam dini içərisində bölücülüyün, sünnü- şiə ayrıseçkiliyinin də əleyhinə olduğunu, islamın bütövlüyünü qoruyub saxlamağa tərəfdar çıxdığını, özünün müqəddəs Qurana qail olduğunu açıq-aşkar bəyan etmişdir:

Əşhədü billahi əliyyül əzim,
Sahibi imanəm, a şirvanlılar!
Yox yeni bir dinə yəqinim mənim,
Köhnə müsəlmanəm, a şirvanlılar!
Şiəyəm, əmma nə bu əşkalədən,
Sünnüyəm, əmmə na bu əmsalədən,
Sufiyəm, əmma nə bu əbdalədən,
Haqsevən insanəm, a şirvanlılar!

Ümməti-mərhuməvü məğfur ilə,
Əmrdəyəm taəti-məzbur ilə,
Kürfümə hökm eyləməyin zor ilə
Qaili-Qur'anəm, a şirvanlılar!

«A şirvanlılar» şeirinin ruhunda M.Ə.Sabirin özünü onu yalandan dinsiz adlandıranlardan müdafiə etməsi niyyəti də duyulur.

M.Ə.Sabirin yaradıcılığı milli olduğu qədər də bəşəridir. Şair kasıb, məktəbdən uzaq salınmış, cəhalət girdabına düçar edilmiş, hüquqları əlindən alınmış həmvətənlərinə haqlarını anlatmaqla ilk növbədə mənsub olduğu Azərbaycan xalqının, sonra isə eyni taleli digər xalqların istiqlalına da xidmət etmişdir. Onun adı dünya ədəbiyyatında insan haqları uğrunda mübarizə aparan, əsarət əleyhinə çıxan görkəmli sənətkarlarla bir sırada çəkilməyə layiqdir. M.Ə.Sabirin 6 yanvar 1908-ci ildə «Molla Nəsrəddin» jurnalında dərc olunmuş «Daş qəlbli insanları neylərdin, ilahi» satirasında geniş mənada insanlığın taleyi dərindən təhlil edilir. Şair burada bütövlükdə göz yaşları dərya olan məzlumların tərəfdarı olduğunu, zalımlara və ümumiyyətlə zalımlığa, haqsızlığa qarşı çıxdığını böyük vətəndaşlıq cəsarəti ilə ifadə etmişdir:

Bir dövrdə kim, silqü səfa qalmayacaqmış,
Bilməm belə dövranları neylərdin, ilahi?!
Məzlumların göz yaşı dərya olacaqmış,
Dəryaları, ümmanları neylərdin, ilahi?!
Bağın, əkinin xeyrini bəylər görəcəkmiş,
Toxm əkməyə dehqanları neylərdin, ilahi?!
Hökm eyləyəcəkmiş bütün aləmdə cəhalət, –
Dildadeyi irfanları neylərdin, ilahi?!

Satirada irəli sürülən suallar Azərbaycanda olduğu kimi, türk-müsəlman aləmində və digər məmləkətlərdə də aktual səslənir, dolğun, ədalətli cavabını axtarır.

Sabirin satirası özünəməxsus yüksək sənətkarlıq xüsusiyyətlərinə malikdir. Şair satirik tipin dilindən danışmağı, onu öz xarakterinə və cəmiyyətdəki mövqeyinə görə təbii dillə danışdırmağı, bu yolla tipin daxili aləmini açmağı bacarır. O, böyük məharətlə qələmə aldığı tiplərin aydın, dolğun portretini yaratmışdır. Sabir satirada bədii portret ustasıdır.

Dudkeş kimi bir papaq başında,
Ağ tükləri bəllidir qaşında.
Gərçi qocadır – babam yaşında,
Xortdandı, xoxandı, qoyma gəldi!
Kirdarı yamandı, qoyma gəldi!

Satirada dialoqdan yerli-yerində istifadə baxımından da Sabirin satirası fərqlənir. «Əhvalpürsanlıq» şeiri satirada dialoqa ən mükəmməl nümunədir.

Dialoqlar isə öz növbəsində şairin satiralarına süjet əlamətləri gətirir. M.Ə.Sabir Azərbaycan ədəbiyyatında süjetli satirik şeirin ilk yaradıcısıdır. Onun süjetli satira nümunələri satirik məzmuna malik olan mənzum hekayələrdən fərqli xüsusiyyətlərə malikdir. Mənzum hekayələrdə epik təsvir, nağılvarilik, Sabirin süjetli satiralarında isə canlı mükalimə əsasında ifadə olunan əhvalatlar və münasibətlər əsasdır.

Əsasən lirik poeziya üçün xas olan əruz vəznini Sabir satirik şeir üçün də doğmalaşdırmışdır. Şairin yaradıcılığında əruz vəzninin əsas bəhrlərinin hamısında dəyərli satira nümunələri yaradılmışdır. Azərbaycan poeziyasında satira dilinin ən zəngin və bənzərsiz nümunələrini yaratmaq M.Ə.Sabirə müyəssər olmuşdur.

Sabir milli satirik şeirimizə ilk dəfə olaraq taziyanə, qırmanc, satirik marş, bəhri-təvil, sual-cavab və s. kimi janrları gətirmişdir.